## VƏKİLLƏR KOLLEGİYASI ÜZVLÜYÜNƏ QƏBULLA BAĞLI İXTİSAS İMTAHANLARININ KEÇİRİLMƏSİ

## QAYDALARI

Azərbaycan Respublikası Vəkillər Kollegiyası Rəyasət Heyətinin 7 iyul 2008-ci il tarixli Qərarı ilə təsdiq edilmişdir.

### 1. ÜMUMİ MÜDDƏALAR

1.1. Bu Qaydalar "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununa və Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Nizamnaməsinə uyğun olaraq hazırlanmışdır.

1.2. Qaydalar, qanunvericiliyin tələblərinə cavab verən namizədlərin vəkilliyə qəbulu qaydalarını müəyyən edir.

### 2. VƏKİLLƏRİN İXTİSAS KOMİSSİYASI

2.1. İxtisas imtahanları Vəkillər Kollegiyasının Rəyasət Heyəti tərəfindən müəyyən edilmiş qaydada Vəkillərin İxtisas Komissiyası (bundan sonra - Komissiya) tərəfindən keçirilir. Komissiyanın tərkibi beş vəkil, üç hakim və üç hüquqşünas alimdən ibarət olmaqla, onun vəkil olan üzvləri Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Rəyasət Heyəti, hakim olan üzvləri Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu, hüquqşünas alim olan üzvləri isə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən təyin edilir.

2.2. Hər hansı şəxs tərəfindən bilavasitə, yaxud dolayısı yolla Komissiyanın işinə təsir göstərilməsi və müdaxilə edilməsi yolverilməzdir.

2.3. Komissiyanın iclasları Komissiyanın sədri tərəfindən çağırılır. İclasın vaxtı, yeri və müzakirəyə çıxarılan məsələlər barədə Komissiya üzvlərinə Komissiyanın sədri tərəfindən ən azı bir gün qabaq məlumat verilir.

2.4. Komissiyanın üzvlərinin üçdə iki hissəsi iştirak etdikdə Komissiyanın iclası səlahiyyəti sayılır. Qərarlar açıq səsvermə yolu ilə sadə səs çoxluğu əsasında qəbul edilir. İclasın protokoluKomissiyasının sədri və iclası aparan katib tərəfindən imzalanır. Qəbul edilmiş rəy Komissiyanın üzvləri tərəfindən imzalanır.

### 3. SƏNƏDLƏRİN QƏBULU

3.1. Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Rəyasət Heyəti vəkilliyə namizədlərinərizələrinin qəbulunun başlanma tarixini və müddətini, bu şəxslər tərəfindən təqdim edilməli olan sənədlərin siyahısını dərc edir.

Vəkil olmaq arzusunda olan, "Vəkillər və vəkillik fəaliyyəti" haqqında Azərbaycan Respublikası Qanununun 8-ci maddəsinin tələblərinə cavab verən şəxslər tərəfindən müsabiqədə iştirak etmək üçün bu Qaydalarla müəyyən edilmiş formada (elektron və ya kağız daşıyıcılar vasitəsilə) müraciət oluna bilər (Əlavə №1).

3.2. İxtisas imtahanının yazılı test mərhələsini müvəffəqiyyətlə verən və şifahi müsahibədə iştirak etmək arzusunda olan vəkilliyə namizədlər Vəkillər Kollegiyasının Rəyasət Heyətinə aşağıdakı sənədləri təqdim edirlər:

3.2.1. Vəkillər Kollegiyası Rəyasət Heyətinin sədrinin adına ərizə;
3.2.2. şəxsiyyət vəsiqəsi və onun surəti (notarial qaydada təsdiq edilmiş);
3.2.3. kadrların şəxsi uçot vərəqəsi;
3.2.4. tərcümeyi-hal;
3.2.5. ali təhsil haqqında sənəd (diplom) və onun surəti (notarial qaydada təsdiq edilmiş);
3.2.6. əmək kitabçasının notarial qaydada və yaxud kadrlar şöbəsində təsdiq edilmiş surəti;
3.2.7. əqli cəhətdən sağlamlıq barədə tibbi rəy və ruhi-əsəb kabinetində dispanser qeydiyyatında olub-olmaması barədə tibbi arayış;
3.2.8. 3x4 ölçüdə 4 ədəd rəngli fotoşəkil.

3.3. Ərizələrin qəbulu müddəti başa çatdıqdan sonra təqdim olunan sənədlər qəbul edilmir.

3.4. Sənədlərin qəbulunu Vəkillər Kollegiyasının Rəyasət Heyəti tərəfindən yaradılmış Komissiya həyata keçirir.

3.5. Komissiya sənədlərin tamlığını, düzgünlüyünü və qanunvericiliklə müəyyən edilmiş şərtlərə uyğunluğunu yoxlayır və sənədləri ərizələrin qəbulu jurnalında qeydiyyata alır.

3.6. Natamam və ya bu Qaydalara uyğun olmayan sənədlər qəbul edilmir və ərizəçiyə aşkar olunmuş çatışmazlıqlar izah olunur. Qəbul edilmiş sənədlərdə sonradan uyğunsuzluq aşkarlanarsa, həmin sənədlər geri qaytarılır. Çatışmazlıqlar aradan qaldırıldıqdan sonra sənədlər ərizələrin qəbulu üçün müəyyən edilmiş müddət çərçivəsində yenidən təqdim edilə bilər.

3.7. Təqdim edilmiş sənədlər bu Qaydaların tələblərinə uyğun olduqda, namizəd ümumi siyahıyaalınır.

## 4. YAZILI (TEST) İMTAHANIN KEÇİRİLMƏSİ

4.1. Yazılı test imtahanı Dövlət İmtahan Mərkəzi tərəfindən müəyyən edilmiş tələblərə uyğun olaraq hazırlanır və keçirilir.

4.2. Namizədlər "İmtahana buraxılış vərəqəsi"ni və şəxsiyyət vəsiqəsini mütləq imtahana gətirməlidirlər.

4.3. Yazılı imtahan qabaqcadan təyin olunmuş tarixdə Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilir.

4.4. İmtahanların şəffaflığının təmin edilməsi məqsədilə Vəkillər Kollegiyasının Rəyasət Heyəti beynəlxalq, habelə hökumət və qeyri-hökumət təşkilatları, kütləvi informasiya vasitələrini imtahanları müşahidə etməyə dəvət edir. Dəvət olunmuş və ya imtahanları müşahidə etmək təşəbbüsü ilə müraciət etmiş təşkilatlar və kütləvi informasiya vasitələri öz nümayəndələrinin siyahılarını yazılı imtahana ən geci 7 gün qalmış Rəyasət Heyətinə təqdim etməlidirlər. Təqdim edilmiş nümayəndələr Rəyasət Heyətitərəfindən akkreditə olunurlar.

4.5. Müşahidəçilər tərəfindən imtahanın gedişinə müdaxilə edilməsi, habelə namizədlərin fikrinin yayındırılması və onların imtahan prosesindən ayrılması yol verilməzdir.

4.6. Yazılı imtahanın sual vərəqəsi 100 sualdan ibarət olur və imtahan 3 saat müddətində keçirilir.

4.7. Cavab kartlarının yoxlanılmasını Dövlət İmtahan Mərkəzi həyata keçirir.

4.8. Hər bir imtahan sualına düzgün cavab 1 (bir) balla qiymətləndirilir (cəmi 100 mümkün bal). Səhv cavablar və ya sualın cavabsız qoyulması "0" bala bərabər tutulur.

4.9. Yazılı imtahanın yekununa görə 60 (altmış) və ya daha çox bal toplamış namizədlər imtahanın ikinci mərhələsinə - şifahi müsahibəyə buraxılırlar.

## 5. ŞİFAHİ MÜSAHİBƏNİN KEÇİRİLMƏSİ

5.1. Yazılı test imtahanından keçid balı toplamış namizədlərin peşə yararlığını müəyyən etmək məqsədi ilə onlarla şifahi müsahibə keçirilir.

5.2. Müsahibənin keçiriləcəyi yeri və vaxtı barədə naməzədlərə qabaqcadan məlumat verilir.

5.3. Hər bir naməzədlə müsahibə fərdi qaydada 30 dəqiqəyədək aparılır. Namizədlərə şifahi müsahibə zamanı hüquq sahəsinə aid, habelə namizədlərin məntiqi nəticələr çıxarmaq qabiliyyətini, ümumi dünyagörüşünü və bilik səviyyəsini müəyyən edən suallar, o cümlədən də hazırkı və ya əvvəlki iş fəaliyyəti ilə bağlı suallar verilə bilər.

5.4. Komissiya üzvləri arasında müsahibə ilə əlaqədar fikir mübadiləsi aparıldıqdan sonra müsahibənin nəticəsi ilə bağlı namizədin cavabları "məqbul" və ya "qeyri-məqbul" kimi qiymətləndirilir və bu barədə protokolda müvafiq qeyd aparılır. Müsahibənin nəticəsində cavablar "qeyri-məqbul" qiymətləndirilən namizədə Vəkillər Kollegiyasının üzvlüyünə qəbul edilməsi üçün rəy verilmir.

5.5. Komissiyanın qərarı ilə şifahi müsahibə videokonfrans formatında keçirilə bilər.

## 6. MÜSAHİBƏNİN YEKUNLAŞDIRILMASI

6.1. Şifahi müsahibənin nəticələri, bir qayda olaraq, hər gün sonuncu namizədlə müsahibə başa çatdıqdan sonra elan edilir. Komissiyanın qərarı ilə şifahi müsahibənin nəticələrinin elan edilməsinindigər dövriliyi də müəyyən edilə bilər.

6.2. Vəkillər Kollegiyasının Rəyasət Heyəti müsahibənin keçirildiyi gündən 1 (bir) il müddətində onun nəticələri üzrə müvafiq sənədlərin saxlanılmasını təmin edir.

6.3. Komissiya müsahibədə cavabları "məqbul" qiymətləndirilən namizədlərin vəkil peşəsinə yararlılığını müəyyən etdikdə, bu barədə yazılı rəy tərtib edilir və həmin rəy Komissiyanın sədri tərəfindən Vəkillər Kollegiyasının Rəyasət Heyətinə təqdim edilir. Komissiyanın rəyi ilə cavabları "məqbul" qiymətləndirilən namizədlər Ədliyyə Nazirliyinin tədris-elm müəssisəsində icbari təlimə

buraxılırlar. Vəkillər Kollegiyasının Rəyasət Heyəti ilə Ədliyyə Nazirliyinin tədris-elm müəssisəsinin birgə müəyyənləşdiridiyi iki hüquqşünas alim tərəfindən vəkilliyə namizədlərin icbari təlimin yekunu üzrə bilikləri qiymətləndirilir. Biliklərin qiymətləndirilməsi icbari təlim ərzində keçirilmiş mövzular üzrəhəyata keçirilir. İcbari təlimi müvəffəqiyyətlə bitirə bilməyən namizəd 6 aydan sonra təkrar təlimə cəlb edilir.

6.4. Namizədin peşə yararlılığına dair Komissiyanın rəyi Vəkillər Kollegiyasının Rəyasət Heyətinə təqdim edildikdən və icbari təlimdən müvəffəqiyyətlə keçdikdən sonra, namizədin vəkil statusunu əldə etməsini istisna edən hallar aşkar edilmədikdə, Vəkillər Kollegiyasının Rəyasət Heyəti namizədin Vəkillər Kollegiyasının üzvlüyünə qəbul edilməsi ilə bağlı müvafiq tədbirlərin görülməsini təmin edir.

6.5. Müsahibənin nəticələrinə dair Komissiyanın qərarından narazı olan namizədlər qərarın elan olunduğu gündən 5 (beş) gün müddətində Vəkillər Kollegiyasının Rəyasət Heyətinə şikayət verə bilərlər. Həmin şikayətə Rəyasət Heyətinin iclasında baxılır və sonuncuya müvafiq cavab verilir.

6.6. İcbari təlim mərhələsini müvəffəqiyyətlə keçmiş dövlət qulluğunda olan vəkilliyə namizəd özünün müraciəti əsasında Vəkillər Kollegiyası Rəyasət Heyətinin müəyyən etdiyi müddətdən gec olmamaqla dövlət qulluğundan azad olunaraq vəkil andını içir. Vəkillər Kollegiyası Rəyasət Heyətinin müəyyən etdiyi müddət ərzində and içməyən vəkilliyə namizədin imtahanının nəticələri Rəyasət Heyətinin qərarı ilə ləğv olunur.

# Vəkillər Kollegiyasının üzvlüyünə qəbulla bağlı ixtisas imtahanının test mərhələsində iştirak etmək üçün müraciət forması

*FOTO (3x4)*

**1. Vətəndaş haqqında məlumat:**

1.1. Adı ___ 1.2. Soyadı ____________ 1.3. Atasının adı ____________

1.4. Cinsi: *Kişi* ☐ *Qadın* ☐

1.5. Doğulduğu tarix (gün, ay, il) ____________

1.6. Doğulduğu yer (ölkə, şəhər (rayon), kənd) ____________

**2. Vətəndaşın şəxsiyyətini təsdiq edən sənəd haqqında məlumat:**

2.1. Şəxsiyyət vəsiqəsinin seriyası və nömrəsi ____________

2.2. Şəxsiyyət vəsiqəsinin verildiyi tarix (gün, ay, il) ____________

2.3. Şəxsiyyət vəsiqəsini verən orqanın adı ____________

2.4. FİN (fərdi identifikasiya nömrəsi) ____________

**3. Vətəndaşla əlaqə vasitələri haqqında məlumat:**

3.1. Qeydiyyatda olduğu ünvan (şəhər, rayon, kənd və küçə göstərilməklə) ____________

3.2. Faktiki yaşadığı ünvan (vətəndaş qeydiyyatda olduğu ünvanda yaşamırsa)

3.3. Elektron poçt ünvanı

3.4. Mobil telefonu (operatorun kodu göstərilməklə)

3.5. Ev telefonu (şəhər (rayon) kodu göstərilməklə) ____________

3.6. İş telefonu (şəhər (rayon) kodu göstərilməklə) ____________

**4. Vətəndaşın Vəkillər Kollegiyasının üzvlüyünə qəbulla bağlı müsabiqədə iştirakının mümkün olub-olmaması haqqında məlumat:**

4.1. Ali hüquq təhsilə maliksinizmi? *Bəli* ☐ *Xeyr* ☐

4.2 hüquqşünas ixtisası üzrə üç ildən az olmayaraq iş stajınız varmı və ya elmi və pedaqoji təhsil müəssisələrində hüquq sahəsində üç ildən az olmayan müddətdə fəaliyyət göstərmisinizmi? *Bəli* ☐ *Xeyr* ☐

4.3. İkili vətəndaşlığınız varmı? *Bəli* ☐ *Xeyr* ☐

4.4. Digər dövlətlər qarşısında öhdəliyiniz varmı? *Bəli* ☐ *Xeyr* ☐

4.5. Barənizdə fəaliyyət qabiliyyətinə malik olmamağınız və ya məhdud fəaliyyət qabiliyyətinə malik olmağınıza dairməhkəmənin qanuni qüvvəyə minmiş qərarı varmı? *Bəli* ☐ *Xeyr* ☐

4.6. Qəsdən az ağır, ağır və ya xüsusilə ağır cinayət törətməyə görə ödənilməmiş və ya götürülməmiş məhkumluğunuz varmı? *Bəli* ☐ *Xeyr* ☐

4.7 Vəkillik fəaliyyətini həyata keçirməyə qadir olmamağınıza səbəb ola biləcək əqli qüsurlarınız varmı? *Bəli* ☐ *Xeyr* ☐

4.8. Barənizdə tibbi xarakterli məcburi tədbirlərin tətbiqinə dair məhkəmənin qanuni qüvvəyə minmiş qərarı varmı? *Bəli* ☐ *Xeyr* ☐

4.9. Əvvəllər vəkil və ya hakim olmusunuzmu? *Bəli* ☐ *Xeyr* ☐

4.10. Vəkil kimi intizam qaydasında vəkillik fəaliyyətinizə xitam verilmişdirmi? *Bəli* ☐ *Xeyr* ☐

4.11. Hüquq elmləri doktoru elmi dərəcəniz, habelə əvvəllər Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi, apellyasiya və kassasiya instansiyası məhkəmələrinin sədri vəzifəsində işləmisinizmi? *Bəli* ☐ *Xeyr* ☐

**Məlumatların doğruluğunu imzamla təsdiq edirəm**

İmza ____________

**5. Vətəndaşın əmək fəaliyyəti haqqında məlumat:**

5.1. Əmək fəaliyyəti: *Hazırda işləmirəm* ☐ *İşləyirəm* ☐

5.2. İşləyirsinizsə, hazırkı iş yeriniz və vəzifəniz ____________

5.3. Ümumi iş stajınız (müraciətin doldurulduğu tarixə) İl _____ ay _____ gün _____

5.4. Hüquqşünas ixtisası üzrə üç ildən az olmayaraq işstajı və ya elmi və pedaqoji təhsil müəssisələrində hüquqsahəsində üç ildən az olmayan müddətdə fəaliyyət il _____ ay _____ gün _____

**6. Vətəndaşın təhsili haqqında məlumat:**

6.1. Ali təhsilin səviyyəsi: *Bakalavriat* ☐ *Magistratura* ☐ *Doktorantura* ☐ *Digər* ☐

6.1.1. Bitirdiyiniz təhsil müəssisəsinin adı və daxil olduğunuz il ______________________

6.1.2. Diplom üzrə ixtisasın adı (məlum olduğu halda ixtisasın şifrini qeyd edin) ______________________

6.1.3. Diplomun seriyası və nömrəsi ____________ 6.1.4. Diplomun verildiyi tarix (gün, ay, il) ____________

*Diplom xarici dövlətin təhsil müəssisəsi tərəfindən verildiyi və nostrifikasiyası tələb edildiyi halda*

6.1.5. Nostrifikasiya şəhadətnaməsinin nömrəsi ________ 6.1.6. Verildiyi tarix (gün, ay, il) ___

6.2. Ali təhsilin səviyyəsi: *Bakalavriat* ☐ *Magistratura* ☐ *Doktorantura* ☐ *Digər* ☐

6.2.1. Bitirdiyiniz təhsil müəssisəsinin adı və daxil olduğunuz il ______________________

6.2.2. Diplom üzrə ixtisasın adı (məlum olduğu halda ixtisasın şifrini qeyd edin) ______________________

6.2.3. Diplomun seriyası və nömrəsi ____________ 6.2.4. Diplomun verildiyi tarix (gün, ay, il) ____________

*Diplom xarici dövlətin təhsil müəssisəsi tərəfindən verildiyi və nostrifikasiyası tələb edildiyi halda*

6.2.5. Nostrifikasiya şəhadətnaməsinin nömrəsi ____________ 6.2.6. Verildiyi tarix (gün, ay, il) ____________

6.3. Ali təhsilin səviyyəsi: *Bakalavriat* ☐ *Magistratura* ☐ *Doktorantura* ☐ *Digər* ☐

6.3.1. Bitirdiyiniz təhsil müəssisəsinin adı və daxil olduğunuz il ______________________

6.3.2. Diplom üzrə ixtisasın adı (məlum olduğu halda ixtisasın şifrini qeyd edin) ______________________

6.3.3. Diplomun seriyası və nömrəsi ____________ 6.3.4. Diplomun verildiyi tarix (gün, ay, il) ____________

*Diplom xarici dövlətin təhsil müəssisəsi tərəfindən verildiyi və nostrifikasiyası tələb edildiyi halda*

6.3.5. Nostrifikasiya şəhadətnaməsinin nömrəsi ____________ 6.3.6. Verildiyi tarix (gün, ay, il) ____________

**Vəkil olmağa namizədlərə irəli sürülən tələblər barədə, digər kadr sənədlərimin test imtahanından sonra qanunvericiliyə müvafiq olaraq toplanılacağı və yoxlanılacağı, bu zaman vəkilliyə qəbul olunmağımı istisna edən hallar aşkar edilərsə müsabiqədən kənarlaşdırılacağım, həmçinin müraciətdə bilərəkdən təhrif olunmuş məlumatların qeyd edilməsinin vəkilliyə qəbul olunmamağım və ya vəkillik fəaliyyətimə xitam verilməsi üçün əsas olması barədə, həmçinin ixtisas imtahanının keçirilmə qaydaları barədə məlumatlıyam, tələb olunan sənədlərin və fərdi məlumatların müsabiqənin təşkili ilə bağlı istifadə olunmasına və qanunvericiliyə müvafiq olaraq üçüncü şəxslərə ötürülməsinə razıyam.**

**Müraciətdə göstərilən məlumatların doğruluğunu, həmçinin test imtahanında iştirak üçün müəyyən olunmuş 200 manat pulu müvafiq bank hesabına ödədiyimi imzamla təsdiq edirəm, ixtisas imtahanının test mərhələsinə buraxılmağımı xahiş edirəm.**

Müraciətin doldurulduğu tarix (gün, ay, il) **İmza**

**~~BU HİSSƏ MÜRACİƏTİ QEYDƏ ALAN ŞƏXS TƏRƏFİNDƏN DOLDURULUR~~**

**Müraciəti qəbul edən şəxsin vəzifəsi, adı və soyadı** ______________________

**Müraciətin təqdim edildiyi tarix** ____________ **İmzası** ______________________

***Müraciətin doldurulması ilə bağlı qeydlər:***

1. Bu Formanın aidiyyəti hissə, bənd və ya yarımbəndləri mütləq doldurulmalıdır. Əks təqdirdə müraciətiniz qəbul olunmayacaqdır.
2. 6-cı hissə doldurularkən bakalavriat, magistratura və doktorantura təhsil səviyyələrinin ardıcıllığı gözlənilməlidir. Digər ali təhsil səviyyəsini bitirmişlər və s. “Digər” qrafasını seçməlidir. “Digər” qrafası seçildiyi halda “Diplom üzrə ixtisasın şifri və adı” yarımbəndi doldurularkən vətəndaşın təhsil səviyyəsi də qeyd edilməlidir. Misal üçün: HS130100-hüquqşünaslıq, ali təhsil.
3. Test imtahanında iştirak üçün nəzərdə tutlmuş vəsaitin müvafiq hesaba ödənilməsi barədə bank qəbzinin əsli və 2 ədəd 3x4 ölçüdə rəngli foto şəkliniz ərizəyə əlavə olunmalıdır.

**Qeyd:** Elektron daşıyıcı vasitəsilə göndərilən müraciətin “Müraciətdə göstərilən məlumatların doğruluğunu təsdiq edirəm” bölməsində yalnız göstərilən məlumatların doğruluğunun təsdiqi üçün müvafiq düymə və müraciətin doldurulduğu tarix əks olunur və müraciəti qeydə alan vəzifəli şəxs tərəfindən doldurulan hissə nəzərdə tutulmur.